*Akademik Cəlal Əliyevin anadan olmasının 89-cu ildönümüdür*

# Görkəmli seleksiyaçı alim

Cəlal Əlirza oğlu Əliyev 1928-ci il iyunun 30-da Naxçıvan şəhərində anadan olmuşdur. Naxçıvan Dövlət Müəllimlər İnstitutunun təbiət-coğrafiya fakültəsini və Azərbaycan Dövlət Universitetinin biologiya fakültəsini bitirmişdir.

Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin üzvü, Rusiya Kənd Təsərrüfatı Elmləri Akademiyasının, Ukrayna Aqrar Elmlər Akademiyasının və Belarus Kənd Təsərrüfatı Elmləri Akademiyasının üzvü olmaqla bərabər onlarca monoqrafiyanın, kitabın və elmi məqalənin müəllifi idi.

1948-ci ildən Azərbaycan Dövlət Universitetinin bitki fiziologiyası kafedrasında laborant işləmişdir. 1954-cü ildən Azərbaycan EA-nın Elmi Tədqiqat Əkinçilik İnstitutunda kiçik elmi işçi, baş elmi işçi, laboratoriya müdiri vəzifələrində çalışmışdır. 1971 -1990-cı illərdə Azərbaycan EA-nın Botanika İnstitutunda fotosintezin fiziologiyası yaradıcı qrupunun rəhbəri, laboratoriya müdiri, şöbə müdiri, Azərbaycan EA-nın biologiya elmləri bölməsinin akademik-katibi olmuşdur.

Azərbaycanda biologiya elminin yeni istiqamətlərinin yaradılmasında böyük xidmətləri olan Cəlal Əliyevin uğurlu elmi fəaliyyətinin mühüm hissəsi ölkəmizdə taxılçılığın inkişafına yönəlib. Onun fotosintezin tədqiqi sahəsində yaratdığı məktəbin əldə etdiyi misilsiz nailiyyətlər dünya elmi ictimaiyyəti tərəfindən çox yüksək dəyərləndirilib. Böyük alimin dərin nəzəri bilikləri, innovativ ideyaları, gərgin əməyi yeni intensiv tipli taxıl sortlarının yaradılması ilə nəticələnib. Alimin fotosintezlə bağlı əldə etdiyi elmi nəticələr dünyanın bir çox ölkələrində uğurla tətbiq olunur.

Respublikamızda elmi kadrların hazırlanmasında akademik Cəlal Əliyevin əvəzsiz xidmətləri olub. Hazırda görkəmli alimin yetirmələri dünyanın bir sıra ölkələrində qabaqcıl elm mərkəzlərində fəaliyyət göstərirlər.

Dünya şöhrətli seleksiyaçı alim, ictimai-siyasi xadim, ölkəmizdə biologiya və aqrar elminin görkəmli nümayəndəsi Cəlal Əliyevin elmi və ictimai-siyasi fəaliyyəti dövlətimiz tərəfindən yüksək qiymətləndirilmişdir. O, «Əməkdar elm xadimi» adına, Azərbaycanın ali dövlət mükafatlarına - "İstiqlal" və "Şərəf" ordenlərinə, Azərbaycan Respublikası Prezidentinin "Fəxri diplomu"na layiq görülmüşdür.

Akademik Cəlal Əliyevin gərgin əməyi, beynəlxalq elmi əlaqələrin inkişafındakı xidmətləri digər ölkələrin də ali mükafatları ilə dəyərləndirilib. O, olduqca mənalı və şərəfli ömür yolu keçmiş, elmə çox dəyərli töhfələr vermiş, ölkənin ictimai-siyasi həyatında fəal rol oynamışdır.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, I-III çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

2010-cu ildə 62 saylı Saatlı seçki dairəsindən yenidən Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmişdir. Azərbaycan-Almaniya Federativ Respublikası parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri olmuşdur.

Görkəmli alim və ictimai xadim Cəlal Əliyev 2016-cı il yanvarın 31-də vəfat etmişdir.

# "Karyerada ilk addım" adlı təlim keçirilib

Bu günlərdə Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzinin birgə təşkilatçılığı ilə Qəbələ "ASAN xidmət" Mərkəzində xanımlar üçün "Karyerada ilk addım" adlı təlim keçirilib.




İnsan alverinə qarşı mübarizəyə dair 2014-2018-ci illər üçün Milli Fəaliyyət Planının 13.5.6-cı bəndinə uyğun olaraq qızların təhsildən yayınmasının qarşısının alınması məqsədi ilə keçirilən təlimin məqsədi Qəbələ rayonunda orta məktəb şagirdlərini və peşə seçimində qərarsız olan xanımları motivasiya etmək və onlara karyera seçimlərində köməklik göstərmək, şəxsi inkişaf istiqamətində həvəsləndirməkdir.

Təlim iki hissədə təşkil olunub. Birinci hissədə Qəbələ rayonunda yaşayan və karyerasında uğur qazanmış xanımlar iştirakçılarla öz uğur hekayələrini paylaşıblar. Təlimin ikinci hissəsində isə iştirakçılara karyerada uğur, xarakter və şəxsiyyət növləri mövzularında təlim keçirilib, interaktiv oyunlar təşkil edilib.

Sonda iştirakçılar sertifikatla təltif olunublar.

**✍ Namiq MƏMMƏDOV,**
**rayon uşaq və ailələrə dəstək mərkəzinin əməkdaşı.**
**Foto İlkin Vəlizadənindir.**

# Qəbələdə Qafqazın ən qədim tapıntısı



Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun elmi işlər üzrə direktor müavini, tarix üzrə elmlər doktoru Nəcəf Müseyiblinin rəhbərlik etdiyi ekspedisiya may və iyun aylarında Qəbələ Beynəlxalq Aeroportu ərazisində xalkolit dövrünə - e.ə. IV minilliyin birinci yarısına aid Qalayeri yaşayış məskənində arxeoloji qazıntı işləri aparıb.

Tədqiqatlar Leylatəpə arxeoloji mədəniyyətinə aid bu yaşayış yerinin Ön Asiyanın, xüsusilə də Şərqi Anadolunun qədim sivilizasiyaları ilə sıx əlaqələrinin mövcudluğunu, e.ə. IV minilliyin birinci yarısında həmin bölgələrdən Azərbaycan ərazisinə kütləvi miqrasiyaların baş verdiyini sübut edən abidələrdən biri olduğunu göstərir.

Son qazıntılar zamanı Qalayerində ilk dəfə olaraq iri ölçülü yarımqazma və onun içərisində qazılmış ikinci dayaz quyu aşkarlanıb. Yarımqazmadan xalkolit dövrü üçün nadir tapıntılardan olan çıraq qalığı da tapılıb.

Yarımqazmanın strukturu və orada çırağın aşkar edilməsi bu yerin abidənin qədim sakinlərinin ibadətgahı olmasını ehtimal etməyə əsas verir. Maraqlı tapıntılardan biri kimi qədim metallurgiyada istifadə edilən gildən hazırlanmış qəlibin aşkarlanmasını xüsusilə qeyd etmək lazımdır. Metal külçələr üçün nəzərdə tutulmuş bu qəlib bütün Qafqazda bu qəbildən olan ən qədim tapıntıdır və bu regionda xalkolit dövrünə aid ikinci belə bir tapıntı hələlik məlum deyil. Bu qəlibin aşkarlanması hələ 6 min il əvvəl Qalayerinin sakinlərinin metallurgiyanı inkişaf etdirdiyini, külçələri uzaq məsafələrə, çox ehtimal ki, Yaxın Şərqə apararaq metal ticarəti ilə məşğul olduqlarını göstərir. Qalayerində qazıntı zamanı küp tipli saxsı qablarda körpə uşaq qəbirləri, dulus kürəsi, minlərlə saxsı qab fraqmentləri, müxtəlif növ daşlardan və sümükdən hazırlanmış alətlər və s. tapılıb. Bütün bunlar xalkolit dövrü əhalisinin həyat tərzi, təsərrüfat fəaliyyəti barədə məlumat verir. Ümumiyyətlə, bu abidə Azərbaycanda erkən idarəçilik ənənələrinin, dövlətin rüşeymlərinin bir sıra xüsusiyyətlərini özündə əks etdirir.

# Erkən nikaha yox deyək

Cəmiyyətdə son dövrlər geniş müzakirə obyekti olan məsələlərdən biri, bununla bağlı müxtəlif maarifləndirici tədbirlər, təlimlər keçirilən erkən nikah mövzusudur. Böyük əksəda doğuran bu məsələ ilə bağlı respublika təşkilatları rayonlarda yerli icra hakimiyyəti orqanları ilə birgə layihələr həyata keçirir. Bu barədə öz fikirlərini bildirən sosioloqlar, mütəxəssislər erkən nikahların həm cütlükləri, həm ailələri, həm cəmiyyəti uzun və qısa zaman müddətində böyük problemlərlə qarşı-qarşıya qoyduqlarını xüsusilə qeyd edirlər. Erkən nikahın bir neçə səbəbi vardır. Ya valideynlərin istəyi və məcburiyyəti ilə, ya da qızın öz istəyi ilə olur. Valideynləri qızları zorla evləndirməsinin əsas səbəbi cəhalətlə əlaqəlidir. Ənənəvi düşüncə tərzinin qısqacında ilişib qalan insanlar, ənənəvi stereotiplərdən uzaqlaşa bilmirlər. Sanki qızlar müəyyən yaş həddinə çatdığı anda ailə həyatı qurmağa məcburdurlar. Bu onlar üçün bir növ "yazılmamış qanun"dur. Lakin valideynlər nəzərə almırlar ki, kiçik yaşlarda fiziki, psixoloji cəhətdən tam formalaşmamış uşaqlarda sonradan bir çox fəsadlar meydana çıxa bilər. Cəmiyyətdə hələ öz həyatının iplərini əlinə almayan, öz mövqeyini qazanmayan, hüquqlarını bilməyən yüzlərlə gənc qızın erkən yaşda ailə həyatı qurmaları üçün səbəblər, bəhanələr həmişə hazırdır. Bəzən yoxsulluqdan qurtulma istəyi, bəzən kölə kimi satılma, bəzən bir eşq, bəzən "Evdə qalarsan, yaşın keçsə səni heç kim almaz" kimi yüz illərdən bəri davam edən, hələ də tərk edilə bilməyən təzyiqlər, bəzən də özünü ifadə etmə istəyi, bəzən mövcud pis vəziyyətdən qaçıb daha yaxşısına qovuşma arzusu erkən nikahın səbəbləri arasındadır.



Hər nə səbəblə olsa da, erkən yaşlarda nikah yanlışdır. Çünki hələ özünü şəxsiyyət kimi formalaşdırmamış, "uşaqlıq havası" üstündə qalan gənclərin ata-ana olması onların dünyaya gətirəcəkləri övladlarına da ziyan verə bilər. Yeniyetməlik dövrünün problemlərini yaşayan gənclər bu probemləri həll etmədən uşaq sahibi olduqda doğulan uşaqların problemli olması qaçılmazdır. Ona görə ki, onlar ailə həyatını dərk etmir, məsuliyyətini qavraya bilmir, meydana çıxan problemlər qarşısında mənəvi, psixoloji sarsıntılar keçirir. Nəticədə övladlarının tərbiyəsini düzgün istiqamətdə apara bilmirlər. Buna görə də, hər şeydən əvvəl uşaqlar təhsil almalı, əxlaqi və mənəvi dəyərlər əsasında yetişdirilməli, mətbuat, televiziya vasitəsilə insanın şüuraltına yerləşən pis fikir, düşüncə, ideyalara - bir sözlə, kənardan gələn təsirlərə aldanmamalı, həyatı, öhdəliklərini dərk edən bir şəxs kimi formalaşmalıdır ki, ömrü boyu ailə bağlarının qopmaması üçün əlindən gələni etsin, sağlam nəsillər yetişdirsinlər.

Erkən yaşlarda qurulan nikahların boşanma ilə nəticələnməsi demək olmaz ki, erkən nikahın birmənalı şəkildə uğursuz olmasının təsdiqidir. Hər halda bir çox evliliklərin davamlı olduğunu görmək mümkündür. Əsas məsələ gənclərin ailə qurmağa hazır olub-olmamağında, birgə yaşamaqla sıxıntılara, problemlərə sinə gərib dözməsindədir. Bu səbəbdən maarifləndirmə işlərinin aparılması mütləqdir.

**✍ Mələkxanım QİSMƏTLİ,**
**müəllim.**